UOT 32:93/94

ŞƏHLA XƏLƏFOVA
Azərbaycan Dillər Universiteti
xalafovasahla@gmail.com

BMT-NİN QLOBAL İQLİM DƏYİŞİKLİYİNƏ QARŞI MÜBARİZƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İŞTİRAKI (COP-29-UN NÜMUNƏSİNDƏ)

DOI: https://doi.org/10.36719/2708-065X/110/257-261

"Azərbaycan Şərqlə Qərbin, Şimalla Cənubun qovuşduğu ölkədir-biz müxtəlif beynəlxalq faktorlar arasında körpülər qura bilərik".

Azərbaycan Respublikası prezidenti İlham Əliyev.

Məqalədə 2024-cü ilin noyabrın 11-dən 22-dək Bakıda keçirilmiş 29-cu Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri Konfransı araşdırılır. Konkpet faktlar əsasında bu konfransda əsas müzakirə mövzusu olan inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizə üçün maliyyə dəstəyi göstərməsi məsələsi, 2035-ci ilə qədər inkişaf etmiş ölkələrin hər il ən azı 300 milyard ABŞ dolları məbləğində maliyyə vəsaiti ayırması qərarı, karbon kreditləri üçün qaydaların müəyyənləşdirilməsi ilə bağlı irəliləyiş əldə edilməsi və bu ölkələrin karbon emissiyalarını azaldaraq maliyyə vəsaiti cəlb etmələrinə və ya ticarət etmələrinə imkan verməsi kimi məsələlər öyrənilir.

Açar sözlər: Konfrans, istixana, emissiya, antropogen, konvensiya, adaptasiya, saziş, iqlim dəyişikliyi.

Giriş. COP (Tərəflər Konfransı) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası çərçivəsində yaradılmış ali qərarverici orqandır. Bu konfransın əsas məqsədi iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığı genişləndirmək və istixana qazı emissiyalarını azaltmaqdır. Çərçivə konvensiyası 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən BMT-nin Ətraf Mühit və İnkişaf üzrə konfransında qəbul edilmişdir. Konvensiyanın məqsədi istixana qazlarının atmosferdəki konsentrasiyasını təhlükəli antropogen müdaxilənin qarşısını alan səviyyədə sabitləşdirməkdir [1, s.211]. COP-un ilk sessiyası 28 mart - 7 aprel 1995-ci ildə tarixlərində Berlində keçirilmişdir. Həmin dövrdən COP hər il təşkil olunur və konvensiyaya tərəf olan ölkələrin nümayəndələrini bir araya gətirir.Tərəflər konfransının funksiyalarına iqlim dəyişikliyi ilə mübarizə sahəsində beynəlxalq siyasəti və tədbirləri müəyyənləşdirmək, istixana qazı emissiyalarının azaldılması üçün öhdəliklər və mexanizmlər yaratmaq, iqlim dəyişikliyinin təsirlərinə qarşı uyğunlaşma tədbirlərini təşviq etmək, inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki dəstək göstərmək daxildir [2, s.172].

Tərəflər konfransı çərçivəsində qəbul edilmiş əsas razılaşmalardan biri 2015-ci ildə 21-ci sessiyada qəbul edilmiş Paris sazişidir. Sazişin məqsədi qlobal temperatur artımını sənaye öncəsi dövrlə müqayisədə 2°C-dən aşağıda saxlamaq və mümkün qədər 1.5°C ilə məhdudlaşdırmaqdır.COP sessiyaları iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərin əlaqələndirilməsi və gücləndirilməsi üçün vacib platformadır [2, s.180].

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası 2024-cü ilin noyabrında Bakıda keçirilib. Tədbirdə 75.984 nəfər iştirakçı qeydiyyatdan keçmişdi ki, onun 57.160 nəfəri xarici nümayəndələr olmaqla 197 ölkə konfransda təmsil olunmuşdu . Bu COP-26 (44.165 iştirakçı) və COP-27 (54.109 iştirakçı) ilə müqayisədə daha yüksək iştirakçı sayını göstərdi. COP-29-un açılışı və başladığı gün BMT-nin baş katibi A.Qutyerreş Bakıda olmuş,sessiyada çıxış etmişdi. Konfransda dünya liderləri, mütəxəssislər, vətəndaş cəmiyyəti nümayəndələri və digər maraqlı tərəflər bir araya gələrək iqlim dəyişikliyi ilə mübarizə sahəsində müzakirələr apardı. COP-29-un məqsədi iqlim dəyişikliyinin qarşısını almaq, adaptasiya tədbirləri görmək və maliyyə resurslarını təmin etmək üçün beynəlxalq səyləri gücləndirmək idi. Bu cəhətdən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin acılış mərasimindəki çıxışıda diqqət çəkir. Belə kı, Prezident Əliyev COP-29-un Bakıda keçirilməsini Azərbaycanın dünya siyasətində rolunun və ölkəyə olan hörmətin təzahürü

kimi qiymətləndirdi. O, Azərbaycanın Şərq və Qərbin, Şimal və Cənubun kəsişdiyi bir ölkə olduğunu vurğulayıb müxtəlif beynəlxalq tərəfdaşlar arasında körpü rolunu oynamağa davam edəcəyini bildirdi. İlham Əliyev çıxışında neft və qazın "Allahın hədiyyəsi" olduğunu qeyd edərək, bu təbii sərvətlərə görə ölkəsini tənqid etməyin ədalətli olmadığını bildirdi. O, neft və qazın bazarda tələb olduğunu və insanların bu resurslara ehtiyacı olduğunu vurğuladı.

Prezident İlham Əliyev yaşıl keçidi dəstəklədiklərini, lakin onun real yanaşma ilə həyata keçirilməsinin zəruriliyini qeyd etdi. O, ölkəsinin yaşıl enerji layihələrinə investisiya yatızdırdığın, lakin bu keçidin mərhələli və balanslı olmasının zəruriliyini vurğuladı. İlham Əliyev bəzi Qərb ölkələrinin Azərbaycanın neft və qazını alıb, eyni zamanda ölkənin fosil yanacaqlardan asılılığını tənqid etməsini "ikiüzlülük" və "siyasi hipokritlik" kimi qiymətləndirdi. O, ABŞ-ı və Avropa İttifaqını bu mövzuda xüsusilə tənqid etdi. Prezident İlham Əliyev Azərbaycanın BMT-nin Təhlükəsizlik şurasının qeyri-üzv ölkələr qrupunun sədri olduğunu və bu vəzifədə 120 ölkənin yekdil qərarı ilə seçildiyini xatırlatdı. O, Azərbaycanın həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr arasında körpü rolunu oynamağa davam edəcəyini bildirdi [3, s.1]. Prezident İlham Əliyevin çıxışı Azərbaycanın enerji siyasətini və xarici ölkələrlə münasibətləri əks etdirən mühüm bir bəyanat oldu. Prezident ölkəmizin təbii sərvətlərini müdafiə və beynəlxalq tənqidlərə qarşı mövqeyini sərt şəkildə ifadə etdi. Prezdent İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə görəcəyi tədbirləri açıqladı,bildirdi ki,2030-cu ilə qədər elektrik enerjisinin 30 %-ni bərpa olunan enerji mənbələrindən – günəş, külək, hidro – təmin etməyi planlaşdırır. Azərbaycan Resublikasının Xəzər dənizində külək enerjisi potensialını artırıb bu enerjini Avropa ölkələrinə ixrac etmək niyyətindədir. Fosil yanacaqlara əlavə bir vergi tətbiq etmək planını ləğv edib COP-29 zamanı kasıb ölkələr üçün yaşıl investisiyalara yönəlmiş 1 milyard ABŞ dolları məbləğində iqlim fondu yaratmağı təklif etdi. Ölkə 29-cu sessiyası çərçivəsində "Climate Finance Action Fund" (CFAF) adlı yaradığı iqlim fondu gələcəkdə neft-qaz ölkələrinin və şirkətlərin könüllü töhfələri vasitəsilə yaşıl layihələr həyata keçiriləcək. Milli İqlim Planı çərçivəsində emissiyaların azaldılması üzrə 2030-cu il üçün hədəfi artırmaq və 2050-ci ilə qədər 1990-a nisbətən 40 %-lik azalma təmin etmək üzərində işləyir. Süni olaraq beynəlxalq müəssisələrlə – BP, Masdar və digər strateji tərəfdaşlarla ortaq günəş, külək və hidrolayihələr (məsələn, 240 MW "Şəfəq" Cəbrayıl) həyata keçiriləcək.Zəlzələ, quraqlıq, daşqın kimi iqlim təsirlərinə uyğunlaşma tədbirləri gücləndiriləcək; enerji səmərəliyi iki dəfə artırılacaq. UN-nin "Loss & Damage" fondu aktivləşdiriləcək, çünki iqlim dəyişikliyi nəticəsində zərər çəkən inkişaf etməkdə olan ölkələrə dəstək verilməlidir .Bu tədbirlər Azərbaycan Respublikasının iqlim siyasətində real addımlar, maliyyə dəstəyi, enerji keçidi və beynəlxalq əməkdaşlıq baxımından strateji xəritəsidir [3, s.10].

Tərəflər konfransının 29-cu sessiyasında yeni bir maliyyə hədəfi – Yeni Kollektiv Kəmiyyətləşdirilmiş İqlim Maliyyələşməsi Məqsədi qəbul edildi. Bu qərar inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizədə dəstək olmaq məqsədilə 2035-ci ilə qədər illik 300 milyard ABŞ dolları məbləğində maliyyə vəsaitinin səfərbər edilməsini nəzərdə tutur.Bu yeni hədəf əvvəlki illik 100 milyard dollar məbləğində öhdəliyin üç qatına bərabərdir və inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinin təsirlərinə qarşı dayanıqlılığını artırmaq, təmiz enerji keçidini sürətləndirmək və karbon emissiyalarını azaltmaq üçün nəzərdə tutulmuşdur [4, s.2]. COP-29-da "Bakı Maliyyə Məqsədi" adlı daha geniş bir təşəbbüs qəbul edildi. Bu təşəbbüs 2035-ci ilə qədər həm dövlət, həm də özəl sektor mənbələrindən illik 1.3 trilyon ABŞ dolları məbləğində iqlim maliyyələşməsini həzərdə tutur. Məqsəd inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizədə daha geniş və səmərəli tədbirlər görməsini təmin etməkdir. 29-cu sessiya iqlim dəyişikliyinin təsirlərinə qarşı daha həssas ölkələrə, xüsusilə kiçik ada dövlətlərinə və zəif inkişaf etmiş ölkələrə xüsusi diqqət yetirib maliyyə vəsaitlərinin əlçatanlığını və şəffaflığını təmin etməyi öhdəlik kimi qəbul etdi. Bu yeni maliyyə hədəfləri qlobal iqlim maliyyələşməsi arxitekturasında əhəmiyyətli bir dönüş nöqtəsi kimi qiymətləndirilir və inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizədə daha güclü və dayanıqlı tədbirlər görməsinə imkan yaradacaq [5, s.3].

Paris Sazişinin 6.4-cü maddəsi, beynəlxalq karbon kreditləşdirmə mexanizmi olan Paris Sazişi Kreditləşdirmə Mexanizmini təsis etmişdir. Bu mexanizm ölkələrin təsdiqlənmiş emissiya azaldılması və ya karbonun çıxarılması layihələri vasitəsilə karbon kreditləri yaratmasına və bu kreditləri digər ölkələrə satmasına imkan verir. Beləliklə, ölkələr öz Milli Müəyyən Edilmiş Töhfələrinə nail olmaq

üçün beynəlxalq əməkdaşlıqdan faydalana bilər [6, s.155]. COP29-da 6.4-cü maddənin həyata keçirilməsi üçün əsas standartlar qəbul edildi. Bu standartlar karbon kreditlərinin keyfiyyətini və etibarlılığını təmin etmək məqsədilə layihələrin metodologiyasını, emissiya azaldılmalarının və ya çıxarılmalarının qiymətləndirilməsini və insan hüquqları ilə bağlı tədbirləri əhatə edir. Bu qərarlar qlobal karbon bazarının formalaşmasında mühüm addım hesab olunur və karbon kreditlərinə olan inamı artırmaqla yanaşı, karbon azaldılması təşəbbüslərinə investisiyaları təşviq edir [6, s.170]. 6.4-cü maddənin həyata keçirilməsi inkişaf etməkdə olan ölkələr üçün maliyyə imkanlarını genişləndirir və onların iqlim dəyişikliyi ilə mübarizə və uyğunlaşma tədbirlərini həyata keçirmələrinə dəstək verir. Bu mexanizm həmçinin təbii iqlim həlləri kimi layihələrin maliyyələşdirilməsini təşviq edib ekosistemlərin qorunmasına və bərpasına töhfə verir. Bəzi tənqidçilər 6.4-cü maddənin tətbiqində potensial boşluqların mövcud olduğunu və bu mexanizmin karbon azaldılması məqsədlərinə çatmaq əvəzinə bəzi hallarda əks təsir göstərə biləcəyini qeyd edirlər. Bu səbəbdən mexanizmin səmərəli və ədalətli şəkildə həyata keçirilməsi üçün ciddi nəzarət və şəffaflıq təmin edilməlidir. Ümumilikdə, Paris Sazişinin 6.4-cü maddəsi qlobal karbon bazarının inkişafında və iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli bir alət olaraq qəbul edilir. Onun uğurlu tətbiqi ölkələrin iqlim hədəflərinə çatmasına və qlobal istiləşmənin məhdudlaşdırılmasına töhfə verir [7, s.9].

COP-29 zamanı iqlim dəyişikliyindən ən çox təsirlənən ölkələrin maliyyə vəsaitlərinə çıxışını asanlaşdırmaq məqsədilə "Zəif Vəziyyətdə Olan Ölkələrin Şəbəkəsi" yaradıldı. Bu şəbəkə iqlim maliyyələşməsi institutları ilə əməkdaşlıq etmək, üzv dövlətlərdə maliyyə vəsaitlərinin mənimsənilməsini artırmaq və investorlar üçün yüksək təsirli layihələri asanlıqla tapmaq üçün ölkə platformaları yaratmaq məqsədi daşıyır. Bundan əlavə, "Qlobal Qoruma" təşəbbüsü çərçivəsində, iqlim risklərinə qarşı əvvəlcədən maliyyələşdirmə və sığorta mexanizmləri vasitəsilə zəif vəziyyətdə olan ölkələrə dəstək göstərilməsi planlaşdırılır. Bu təşəbbüs iqlim və fəlakət risklərinə qarşı maliyyə və sığorta strukturlarının qurulması, qoruma boşluqlarının müəyyənləşdirilməsi və uyğun maliyyələşdirmə həllərinin inkişaf etdirilməsi məqsədini daşıyır. COP-29-un nəticələri zəif vəziyyətdə olan ölkələrin iqlim dəyişikliyinin təsirlərinə qarşı mübarizədə daha güclü və dayanıqlı tədbirlər görməsinə imkan yaratmaq üçün atılmış mühüm addımlar kimi qiymətləndirilir. Eyni zamanda bu ölkələr üçün maliyyə vəsaitlərinin həcmi və əlçatanlığının artırılması istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir [8, s.198].

Tərəflər konfransının 29-cu sessiyasında fosil yanacaq lobbilərinin təsiri ciddi narahatlıq doğurdu.Tədbirdə 1773 kömür, neft və qaz lobbiçisi iştirak edirdi. Bu konfransda ən böyük nümayəndə heyətlərindən biri edər. Bu rəqəm iqlim dəyişikliyindən ən çox təsirlənən on ölkənin nümayəndələrinin ümumi sayını (1033 nəfər) belə üstələdi. Lobbiçilərin əksəriyyəti ExxonMobil, Shell, BP və TotalEnergies kimi böyük enerji şirkətlərinin nümayəndələri idi. Bəzi ölkələr, məsələn Belçika rəsmi nümayəndə heyətinə fosil yanacaq şirkətlərinin nümayəndələrini daxil etmişdi. Bu lobbiçilərə danışıqlarda daha çox təsir imkanı verdi və şəffaflıqla bağlı suallar doğurdu. COP29-un təşkilat komitəsində fosil yanacaq təmsilçilərinin olması əlavə narahatlığa səbəb oldu. Bu hadisələr iqlim danışıqlarında fosil yanacaq lobbsinin təsirini azaltmaq və danışıqların şəffaflığını artırmaq üçün daha sərt tədbirlərin görülməsi zərurətini yaratdı.

COP-29-a rəhbərlik və onun olunması Azərbaycan Respublikası və onun prezidenti İlham Əliyev tərəfindən həyata keçirildi. Konfransın prezidenti vəzifəsini Azərbaycanın Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev icra etmişdi. O, SOCAR-da uzun illər ərzində ekologiya üzrə vitse-prezident vəzifəsində çalışmışdı. M.Babayevin rəhbərliyi altında COP-29-un əsas prioritetləri iqlim maliyyələşməsi, şəffaflıq və inklüzivlik idi. O, "COP-29 Prezidentinin Dostları" forumunu təsis və müxtəlif maraqlı tərəflərin danışıqlarda iştirakını təmin etdi. Konfransın baş danışıqlarçısı Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Y.Rəfiyev idi. O, 198 tərəf ölkə ilə danışıqları koordinasiya etmiş və ədalətli, şəffaf prosesin təmin olunmasına çalışmışdı. COP-29-un baş icraçı direktoru vəzifəsini Azərbaycanın energetika nazirinin müavini E.Soltanov icra etmişdi. O, konfransın gündəliyinin həyata keçirilməsinə cavabdeh idi. Konfransın əməliyyat direktoru vəzifəsini N.Cərçəlova icra etmişdi. O, COP29-un təşkilati məsələlərini və dayanıqlı icrasını təmin etmişdi. Milli Məclisin deputatı N.Arpadarai qeyri-dövlət aktorlarını iqlim tədbirlərinə cəlb etmək və özəl sektorla əməkdaşlığı gücləndirmək məqsədilə fəaliyyət göstərmişdi. L.Həsənova COP-29-un Gənclər üzrə İqlim Dəyişikliyi Çempionu

kimi gənclərin iqlim məsələlərində iştirakını təşviq etmişdi. COP-29-un Təşkilat Komitəsi Azərbaycan Prezidenti İlham Əliyevin 13 yanvar 2024-cü il tarixli sərəncamı ilə yaradılmışdı. Komitənin sədri Prezident Administrasiyasının rəhbəri S.Nuriyev idi. Əvvəlcə yalnız kişilərdən ibarət olan komitənin tərkibi sonradan genişləndirilib qadınların və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı təmin edildi. COP-29-un liderliyi və idarəetməsi Azərbaycan Respublikasının iqlim dəyişiklikləri ilə mübarizədə qlobal səylərə töhfə vermək və inklüziv, şəffaf bir prosesi təmin etmək məqsədi daşıyırdı [9, s.1].

COP-29-un Bakıda keçirilməsi bir sıra geosiyasi gərginliklər və mübahisələrlə müşayiət olundu. Azərbaycan Respublikasının ev sahibliyi etdiyi bu tədbir regional münaqişələr və beynəlxalq münasibətlərdəki gərginliyi iqlim danışıqlarına daşıdı.Azərbaycan COP29-da bərpa olunan enerji layihələrini, xüsusilə Dağlıq Qarabağ bölgəsində həyata keçirilən günəş və külək enerjisi stansiyalarını ön plana çıxardı. Azərbaycan bu layihələrin regional enerji təhlükəsizliyinə töhfə verəcəyini və sülhə xidmət edəcəyini bildirdi. COP-29-da Rusiya Ukraynanın işğal olunmuş bölgələrindəki emissiya məlumatlarını öz hesabatına daxil etdi. Bu addım Ukrayna tərəfindən suverenliyə təcavüz kimi qiymətləndirildi və beynəlxalq hüquq normalarının pozulması kimi tənqid olundu. Bu məsələlər iqlim ədaləti və insan hüquqları arasında sıx əlaqənin vurğulanmasına səbəb oldu. COP-29 iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığın zəruriliyini bir daha göstərdi [10, s.1].

COP-29-un yekunları gələcək iqlim siyasətinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Bakıda keçirilən sessiyada qəbul edilən qərarlar, iqlim maliyyələşməsi, adaptasiya və karbon bazarları sahəsində yeni istiqamətlər müəyyən edildi.Əsas nailiyyətlərdən biri inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər hər il ən azı 300 milyard dollar iqlim maliyyələşməsi təmin etməyi öhdələrinə götürməsidir. İştirakçılar tərəfindən illik 1.3 trilyon dolların səfərbər edilməsi məqsədi ilə "Bakıdan Beləma Yol Xəritəsi" qəbul edildi. Bu vəsaitin həm ictimai, həm də özəl mənbələrdən təmin edilməsi planlaşdırıldı. Lakin bu qərar Hindistan və Nigeriya kimi bəzi inkişaf etməkdə olan ölkələr tərəfindən qeyri-kafi və ədalətsiz hesab edildi. Adaptasiya sahəsində COP-29 "Bakı Adaptasiya Yol Xəritəsi"ni təsdiq etdi. Bu sənəd ölkələrin 2025-ci ilə qədər Milli Adaptasiya Planlarını hazırlamasını və həyata keçirməsini təşviq edir. Bununla yanaşı adaptasiya sahəsində göstəricilərin müəyyən edilməsi və izlənməsi üçün texniki işlərin davam etdirilməsi qərara alındı. Karbon bazarları üzrə COP-29 Paris Sazişinin 6.4-cü maddəsinin həyata keçirilməsi istiqamətində irəliləyişlər əldə etdi. Yeni mexanizmlər karbon kreditlərinin ticarətinin şəffaf və ədalətli şəkildə aparılmasını təmin etməyə yönəlib. Bu inkişaf etməkdə olan ölkələr üçün əlavə maliyyə imkanları yaradır [11, s.1].

Nəticə. COP-29 Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı iqlim maliyyələşməsi və karbon bazarları sahəsində mühüm qərarlarla yadda qaldı. COP-29-un nəticələri növbəti dəfə iqlim dəyişikliyi ilə mübarizədə qlobal əməkdaşlığın vacibliyini göstərdi. COP-29-un nəticələri sonrakı iqlim konfransları üçün samballı baza yaratdı. 2025-ci ildə Braziliyada keçiriləcək COP-30-da bu qərarların tətbiqi və inkişaf etdirilməsi gözlənilir. Bu prosesdə iqlim maliyyələşməsinin artırılması, adaptasiya tədbirlərinin gücləndirilməsi və karbon bazarlarının səmərəli işləməsi əsas prioritetlər olacaq.

"Biz iqlim dəyişikliyinə qarşı əlaqələndirilmiş cavab tədbirlərinin vacibliyini dərk edir, birgə təşəbbüslər vasitəsilə təsirimizi gücləndirməyi və davamlı gələcəyə doğru irəliləyişi sürətləndirməyi hədəfləyirik." Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən səslənən bu fikir COP-29-da hamının razılaşdığı yanaşmanı – iqlim məsələlərində beynəlxalq həmrəyliyi və əlaqələndirilməsi tədbirlərinin zəruriliyini təsdiq etdi.

ƏDƏBİYYAT

1. Quliyev S.Ə. "Beynəlxalq ekologiya hüququ." Bakı, Nəş.Şərq-Qərb, 2017, 312 s.
2. Əliyev K.F. "İqlim Dəyişikliyi və Beynəlxalq Təşkilatlar". Bakı, Nəş.İqtisad Evi, 2020, 284 s.
3. Qurbanov S.H. İlham Əliyevin ekoloji siyasəti. Dayanıqlı inkişaf və yaşıl dünya (2003–2023) (üç cildlik) Bakı, Nəş."Elm və Təhsil" 2024 , 3x 336 s.
4. UNFCCC. Summary of Outcomes: COP29 Baku – New Collective Quantified Goal on Climate Finance (NCQG). Nəş.UNFCCC, 2024, 8 s.
5. UNFCCC. COP29 High-Level Summary: Enhancing Climate Finance Access for Vulnerable Countries. Nəş.UNFCCC, 2024, 6 s.

6. Abbasov E.Ə. "Karbon Bazarı və Paris Sazişi: Qlobal Əməkdaşlıq və İqlim Hüququ." Bakı, Nəş. Ekonomika, 2025, 228 s.
7. UNFCCC.Technical Expert Review: Safeguards,Integrity and Challenges in Implementing Article 6.4. Nəş.UNFCCC, 2024,18 s.
8. Əliyeva S.Q. "İqlim Riskləri və Qlobal Maliyyə Təşəbbüsləri." Bakı, Nəş.Elm, 2025, 248 s.
9. Prezident.az. (2024, Yanvar 13). COP29 üzrə Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam. Azərbaycan Respublikası Prezidenti. https://president.az/articles/3921 [15.09.2025].
10. Lou Del Bello "Tensions Flare at COP29 as Geopolitics Overshadow Climate Talks. Climate Home News", 2024 https://www.climatechangenews.com/cop29-geopolitics-azerbaijan [15.09.2025].
11."C2ES – Key Negotiations & Related Outcomes of the UN Climate Change Conference in Baku" Bakı, Nəş.C2ES, 2025, 13 s.

ШАХЛА ХАЛАФОВА
Азербайджанский Университет Языков

УЧАСТИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В БОРЬБЕ ООН С ГЛОБАЛЬНЫМ ИЗМЕНЕНИЕМ КЛИМАТА (НА ПРИМЕРЕ КС-29)

В статье рассматривается КС 29 - 29-я Конференция ООН по изменению климата, которая прошла в Баку 11–22 ноября 2024 года. Исходя из фактов дела, основными темами обсуждения на этой конференции являются вопрос предоставления развитыми странами финансовой поддержки развивающимся странам для борьбы с изменением климата, решение о выделении развитыми странами не менее 300 миллиардов долларов США финансовых ресурсов ежегодно к 2035 году, прогресс в определении правил для углеродных кредитов и возможность привлечения или торговли финансовыми ресурсами за счет сокращения выбросов углерода.

Ключевые слова: Конференция, парниковый, эмиссия, антропогенный, Конвенция, адаптация, соглашение.

SHAHLA KHALAFOVA
Azerbaijan University of Languages

PARTICIPATION OF THE REPUBLIC OF AZERBAIJAN IN THE UN'S FIGHT AGAINST GLOBAL CLIMATE CHANGE (ON THE EXAMPLE OF COP-29)

The article examines COP-29 - the 29th United Nations Climate Change Conference held in Baku on November 11-22, 2024. Based on the facts of the case, the main topics of discussion at this conference are the issue of developed countries providing financial support to developing countries to combat climate change, the decision to allocate at least 300 billion US dollars in financial resources by developed countries annually by 2035, progress in defining rules for carbon credits, and the possibility of attracting or trading financial resources by reducing carbon emissions.

Keywords: Conference, greenhouse, emission, anthropogenic, Convention, adaptation, agreement.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər:c.ü.f.d. Elxan Nuriyev, t.ü.f.d. Məmmədağa Baxışov.